**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Azərbaycan və İtaliya iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf perspektivləri"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

Əlibabayeva Sevilcan Akif

**BAKI - 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**dos. Əhmədov Fariz Saleh oğlu**
**Təsdiq edirəm**

**"___"_________20 -ci il**

# "Azərbaycan və İtaliya iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf perspektivləri"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisaslaşmanın şifri və adı: 060401 – Beynəlxalq iqtisadi münasibətlər**

**Magistrant**
Əlibabayeva Sevilcan Akif

imza___________________

**Elmi rəhbər**
i.e.n., dos. Səmədova Mehriban Tofiq

imza___________________

**Proqram rəhbəri**
i.f.d., b/m Nəcəfova Kəmalə Akif

imza___________________

**Kafedra müdiri**
i.e.d professor Kəlbiyev Yaşar Atakişi

imza___________________

**BAKI – 2019**

## Summary

**Relevance of research. The ever-increasing demand for foreign trade, the active involvement of countries in global economic relations and global trade in globalization, calls for new approaches in this area to ensure its flexibility against transformation of the economic situation in Azerbaijan and Italy, and the need to bring these countries closer in line with international rules and norms condition.**

**Purpose and tasks of the research. An objective and thorough study of foreign trade and economic relations between Azerbaijan and Italy.**

**Used research methods. Theoretical principles of conceptual and systematic approaches, methods and methods of scientific research, statistical grouping and comparisons, etc. performs.**

**The database of the dissertation. Work consists of scientific works of well-known experts in the field of foreign economic and trade relations of the Azerbaijan and Italy and famous scientists of the world in the field of economic and trade, features of expansion of economic relations, corresponding legislative acts and other legal and normative documents.**

**Research restrictions: Requires broader practical information.**

**Research Findings: It is perhaps perhaps the most important outcome of this research that economic relations between the two countries have recently shifted to new quality and new quality stages that have no analogues.**

**Scientific-practical significance of the research. as well as the ideas and ideas proposed at that level can be applied both at the state level and at the level of separate joint and foreign firms in the field of foreign economic and foreign trade activities.**

**Key words: Italy, Azerbaijan, trade**

# İXTİSARLAR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AFR** | Almaniya Federativ Respublikası |
| **Aİ** | Avropa İttifaqı |
| **AR** | Azərbaycan Respublikası |
| **AYİB** | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| **BBDTL** | Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı |
| **BƏƏ** | Birləşmiş Ərəb Əmirlikləri |
| **BXİ** | Birbaşa Xarici İnvestisiyalar |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **DTT** | Dünya Ticarət Təşkilatı |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **İİTKM** | İqtisadi İslahatların Təhlil və Kommunikasiya Mərkəzi |
| **RF** | Rusiya Federasiyası |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **TAP** | Trans-Adriatik Pipeline |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ...........................................................** | **7** |
| **I FƏSİL.** | **XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFININ NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI............................** | **11** |
| **1.1.** | İqtisadi inkişafda xarici iqtisadi əlaqələrin rolu və elmi – nəzəri əsasları........................................................................................ | **11** |
| **1.2.** | İqtisadi inteqrasiya şəraitində xarici iqtisadi əlaqələrin müasir vəziyyətinin inkişafına təsir edən amillər.................................... | **20** |
| **1.3.** | Ölkələr arasında iqtisadi əlaqələrin inkişafında müasir informasiya texnologiyalarının rolunun artırılması məsələləri...... | **27** |
| **II FƏSİL.** | **AZƏRBAYCAN VƏ İTALİYA RESPUBLİKALARININ İQTİSADİ – TİCARƏT ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ ONLAR ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN MÖVCUD İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ.....................................................** | **36** |
| **2.1.** | İtaliya Respublikasının müasir iqtisadi vəziyyəti və iqtisadi əlaqələrin inkişaf təmayülləri.................................................. | **36** |
| **2.2.** | Azərbaycan Respublikasının xarici iqtisadi – ticarət əlaqələrinin müasir vəziyyətinin tədqiqi......................................................... | **43** |
| **2.3.** | Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında iqtisadi əlaqələrin mövcud imkanlarının qiymətləndirilməsi......... | **51** |
| **III FƏSİL.** | **AZƏRBAYCAN VƏ İTALİYA RESPUBLİKALARI ARASINDA İQTİSADİ – TİCARƏT ƏLAQƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ.........................................** | **55** |
| **3.1.** | İqtisadi və xarici ticarət əlaqələrinin iqtisadi effektivliyinin təmin edilməsinin prioritet istiqamətləri................................................ | **55** |
| **3.2.** | Azərbaycan – İtaliya iqtisadi əlaqələrinin təkmilləşdirilməsi perspektivləri.......................................................................... | **58** |
| **3.3.** | Azərbaycan və İtaliya arasında ikitərəfli qarşılıqlı investisiya qoyuluşu üzrə mövcud potensiallardan effektiv istifadə yolları..... | **63** |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.....................................................** | **69** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.......................................** | **72** |
| | **Əlavələr...........................................................................** | **75** |
| | Cədvəllərin siyahısı.............................................................. | **75** |
| | Sxemlərin siyahısı................................................................. | **75** |
| | Diaqramların siyahısı............................................................ | **75** |

# GİRİŞ

**Tədqiqatın aktuallığı**. Müasir dövrdə Azərbaycan - İtaliya qarşılıqlı əlaqələri, iqtisadi, sosial, siyasi sahələr üzrə müvəffəqiyyətlə tərəqqi edir. O cümlədən, qardaş xalqların daha çox yaxınlaşmasına şərait yaradan fəaliyyət sahələri də mövcuddur ki, bunlara da xarici ticarət fəaliyyətini misal göstərmək etmək olar.

Ulu öndər Heydər Əliyevin və dövlətin indiki başçısı İlham Əliyevin bilavasitə iştirakı ilə yenidən yaradılaraq yeni şəklə salınmış AR-nın xarici ticarəti dünya ticarətinə inteqrasiya edilmişdir.

Lakin xarici ticarətin fasiləsiz olaraq tələbatları, qloballaşma mühitində dövlətlərin interaktiv şəkildə dünya təsərrüfat münasibətləri və dünya ticarətinə daxil olması bu sahədəki müasir yanaşmaların, onun AR və İtaliyada yaranan iqtisadi vəziyyətlərinin transformasiyalarına qarşı çevikliyinin təmin olunmasının, qlobal qayda qanunlara müvafiq olaraq bu ölkələrin əməkdaşlıq münasibəti saxlamasının son dərəcə vacibliyini şərtləndirir.

Azərbaycanın və İtaliyanın zəif xarici ticarət münasibətləri olduğunu əks etdirən onlar arasındakı ixrac-idxal prosedurlarının müqayisəli şəkildə təhlil edilməsi də buna sübutdur. Bütün bunlar ümumilikdə Azərbaycan və İtaliyanın xarici ticarət münasibətlərinin inkişaf etdirilməsinin praktiki və nəzəri problemlərinin ümumi halda tədqiq edilməsinin dərindən mənimsənilməsinin vacibliyini göstərir.

**Problemin öyrənilməs səviyyəsi.** Azərbaycanda xarici ticarət əlaqələrinin formalaşması, xarici investisiyaların təşviqi və cəlbi, regional iqtisadi əməkdaşlıq məsələləri sahəsində son illərdə ciddi tədqiqat əsərləri yaranmışdır. Bu sahədə tanınmış Azərbaycan alimləri E.Bağırzadə, Z.Səmədzadə, Ş.Hacıyev, Ə.Bayramov, R.Həsənov, N.İmanov, Ə.Muradov, A.Şəkərəliyev, İ.Kərimli, M.Bərxudarov, A.Məhərrəmov, R.Qasımov, D.Vəliyev, G.Gənciyev, F.Rəhimli, M.Məmmədov və digərlərinin ardıcıl tədqiqatları diqqəti cəlb edir. Dünya təcrübəsində xarici ticarət əlaqələrinin müxtəlif nəzəri-praktiki məsələlərinin tədqiqi ilə tanınmış iqtisadçı alimlərdən M.Porter, C.Stiqlits, P.Kruqman, F.List,

A.Bulatova, V.Derqaçev, İ.Balabanov, A.Başarova, L.Şkvarya, İ.Kovalyova, E.Koçetov, V.Rıbalkin, Y.Xrenova, V.Fominskiy və başqalarının maraqlı əsərləri vardır. Lakin yuxanda adlan çəkilən alim və iqtisadçıların elmi əsər və işləri bir çox öyrənilən problemin həllini əhəmiyyətli dərəcədə irəlilətmiş, xarici iqtisadi və xarici ticarət fəaliyyətinin bir sıra aspektlərini yeni şəkildə dərk etməyə imkan yaratmışdır. Bununla yanaşı, elmi ədəbiyyatda Azərbaycan və İtaliyanın xarici ticarət əlaqələrinin qravitasiya modelinin qurulması zəif işıqlandırılmışdır. Beləliklə, iqtisadi elm və praktikası üçün göstərilən problemlərin həllinin, iqtisadi modelinin qurulmasının vacibliyi dissertasiya işinin bu mövzu və istiqamətinin seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi İtaliya və Azərbaycan arasında xarici iqtisadi-ticarət münasibətlərinin ətraflı şəkildə öyrənilməsindən və nəticədə bu ölkələrin dünya iqtisadi sisteminə inteqrasiya olunması çərçivəsində bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətlərinin hazırlanmasından təşkil edilmişdir.

Əsas məqsədə çatmaq üçün dissertasiya işində bir sıra məsələlərə baxılmışdır:

- İqtisadi tərəqqidə xarici iqtisadi münasibətlərin rolu və elmi – nəzəri əsaslarının tətqiqi,
- İqtisadi inteqrasiya mühitində xarici iqtisadi münasibətlərin müasir vəziyyətinin inkişafına təsir edən amillərinin araşdırılması,
- İtaliyanın modern iqtisadi vəziyyəti və iqtisadi münasibətlərin tərəqqi təmayülləri,
- AR-nın xarici iqtisad – ticarət əlaqələrin müasir vəziyyətinin tədqiqi,
- AR ilə İtaliya arasında iqtisadi münasibətlərin mövcud imkanlarının qiymətləndirilməsi,
- İqtisadi və xarici ticarət münasibətlərinin iqtisadi effektivliyinin təmin edilməsinin prioritet istiqamətlərinin araşdırılması.

**Tədqiqatın obyekti və predmenti.** Tədqiqatın obyekti: İtaliya - Azərbaycan iqtisadi-ticarət münasibətləri və bu əlaqələrin dünya iqtisadi sisteminə inteqrasiya

etməsidir. Predmeti isə Xarici ticarət münasibətlərinin yaranması münasibətləri və qloballaşma zamanı Azərbaycan və İtaliyada bu əlaqələrin inkişaf etdirilməsi üsullarının əsaslandırılmasından ibarətdir.

**Tədqiqatın metodları.** Sistemli və eyni zamanda konseptual və yanaşmaların ilkin nəzəri prinsipləri, elmi tədqiqatın üsullar və müqayisələr, konspektləşdirmələr, riyazi-iqtisadi üsullar, hesabi və proqnoz dəyərləndirmələr və s. özünü göstərir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin informasiya bazası Azərbaycan və İtaliyanın xarici iqtisadi və ticarət münasibətləri sektorunda məşhur mütəxəssislərin və dünyanın iqtisadi - ticarət sektorunda alimlərinin elmi yazıları, iqtisadi münasibətlərin böyüməsi əlamətləri, regional qanunvericilik protokolları və başqa hüquqi – normativ sənədlərdən ibarətdir.

**Tədqiqatın məhdudiyyətləri.** Disertasiyanı araşdıran zaman Azərbaycan Respublikası ilə iqtisadi cəhətdən inkişaf etmiş bir çöx ölkələrin iqtisadi-ticarət əlaqələri yönümündə araşdırılma aparakən məlum olur ki, İtaliya Respublikası sferasında geniş tətqiqatlara məhduddur. Belə olan halda effektiv iqtisadi müqayisəli təhlil aparıla bilinmir.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** İtaliya və AR-nın dünya iqtisadi sisteminə inteqrasiyası mühitində bu ölkələrin xarici ticarət münasibətlərinin inkişaf etdirilməsi problemlərinin ümumi şəkildə öyrənilməsinə cəhd göstərilmişdir.

- İqtisadi və ticarət münasibətləri sektorunda mütərəqqi xarici təcrübənin ətraflı olaraq elmi təhlil vasitəsilə qlobal üsyanlar zamanı xarici ticarət münasibətlərinin rəqabət üstünlüyü ilə əlaqədar nəzəri-metodoloji müddəalar tərtib olunmuşdur;

- Ticarət münasibətlərinin öyrənilməsinin mexanizm və ümumi üsulları tərtib olunmuş, bu əlaqələrin təsir gücünün dəyərləndirilməsi və proqnozlaşdırılmasına metodoloji yanaşmalar formalaşdırılmışdır;

- İtaliya - Azərbaycan iqtisadi və ticarət münasibətləri makroiqtisadi və eyni zamanda mikroiqtisadi olaraq ümumi şəkildə və sistemli öyrənilmişdir;

- İtaliya - Azərbaycan xarici iqtisadi-ticarət münasibətlərinin rəqabətliliyinin artırılması yollan aşkar edilmişdir;

- İtaliya - Azərbaycan arasında eksport, import və eksport-import əməliyyatlarının iqtisadi təsirliliyi təyin olunmuşdur.

Dissertasiya işinin əsas müddəa və tövsiyələri xarici iqtisadi fəaliyyət və ticarət münasibətləri sektorundakı mütəxəssislər üçün maraq doğurur. İşin müxtəlif materialları respublikanın ali təhsil ocaqlarında “Beynəlxalq iqtisadi əlaqələr”, “Dünya iqtisadiyyatı” və s. kimi ixtisasları üzrə istifadə və tətbiq oluna bilər.

Tədqiqatın praktiki olaraq faydası odur ki, onda bildirilən rəylər dövlət səviyyəsində və eyni zamanda iqtisadi və ticarət fəaliyyəti sahəsində müxtəlif xarici firmalar səviyyəsində istifadə edilə bilər. Bununla yanaşı, dissertasiya işinin bəzi müddəaları xarici bazara çıxışı olan firma başçıları üçün də yararlı ola bilər.

**Dissertasiyanın işinin strukturu və həcmi.** Dissertasiya işi girişdən, 3 fəsildən, nəticə, təkliflərdən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 75 səhifədən ibarətdir.

# I FƏSİL. XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFININ NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1. İqtisadi inkişafda xarici iqtisadi əlaqələrin rolu və elmi – nəzəri əsasları

İqtisadi inkişafı ən ümumi mənada ölkənin ictimai, siyasi və iqtisadi quruluşu ilə yanaşı inkişafı, bu sahələrə edilən investisiyaların daha effektiv hala gətirilməsi kimi göstərmək olar. Edilən investisiyalar fərdlərin yaşam səviyyələrini yaxşılaşdırdığı üçün ölkələrin inkişafı təkcə iqtisadiyyatlarının inkişafıyla yox, fərdlərin həyat standartlarını artıra bilmək məqsədilə edilmiş və yaxud ediləcək sərmayələrlə də bağlıdır.

İqtisadi olaraq artım göstərdikləri halda ümumi cəmiyyətdə bir rifah artımı təmin edə bilməmiş, adambaşına düşən gəlir səviyyəsi çox yüksək olmasa da vətəndaşlarının İEÖ standartlarında bir həyat standartına sahib ola bilməmiş ölkələr vardır. Bu səbəbdən də, bir ölkənin iqtisadiyyatı artım göstərdiyi zaman yoxsulluq səviyyəsindən aşağıda yaşayan əhali sayında azalma və iqtisadiyyatda struktural, təşkilati və keyfiyyət cəhətdən inkişaflar olmursa bu ölkələr üçün tərəqqi etmiş və yaxud iqtisadiyyatı tərəqqi etmiş ölkə ifadəsini işlədə bilmərik. (Feride G.D.. Efil Yayınevi, 2016, 348 s.)

Bir ölkə üçün inkişaf iqtisadi mənada milli gəlirdəki artım, eyni zamanda beynəlxalq bazarlarda rəqabət edə bilmə özəlliyini bildirir. Ölkələr üçün əhəmiyyətli bir inkişaf meyarı olan adambaşına düşən ÜDM-in yüksələ bilməsi ölkənin istehsal gücü və ixrac gəlirləri ilə əlaqəlidir. Əlavə olaraq, bir ölkədə iqtisadi tərəqqini şərtləndirən amilləri ictimai, siyasi və hərbi cəhətdən da izah etmək olar. (Karagül M. rolü. 2015, 37 s.)

Bir ölkənin təkmilləşməsi o ölkənin milli və beynəlxalq sahədə nə qədər təsirli ola bilməsinin bir göstəricisidir. Siyasi iradənin ölkədə rahat işləyə bilməsi və mənfəət qruplarıyla mübarizə edə bilməsi ölkənin inkişafa verdiyi qatqı ilə bağlıdır. Qloballaşan dünyada artan beynəlxalq əlaqələr səbəbiylə ölkələr milli maarqlarını qorumaq üçün sözünü dinlədə bilmək üçün iqtisadi mənada da güclü olmalıdırlar. Bu da yalnız inkişaf ilə ola bilər.

Keçmiş sosialist blokuna daxil olan bir çox ölkələr kimi Azərbaycan da inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid mərhələsini yaşayır. Bu mərhələ beynəlxalq əmək bölgüsünün dərinləşdirilməsini səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılmasında xarici iqtisadi əlaqələrin yeri və rolunun düzgün müəyyənləşdirilməsini tələb edir.

Məlumdur ki, keçmiş sovet iqtisadi sisteminin fəaliyyəti müəyyən dərəcədə qapalı xarakterdə olmuşdur. Respublika iqtisadiyyatının dünya təsərrüfatından təcrid olunmuş halda inkişaf etdirilməsi istər xarici iqtisadi əlaqələrin, istərsə də respublikalar arası iqtisadi əlaqələrin səmərəsiz formada qurulmasına, idxal və ixracın quruluşunun bütövlükdə optimal və balanlaşdırılmış xarakterdə olmasına gətirib çıxarmışdır. Digər tərəfdən də beynəlxalq əmək bölgüsündə iştirakın iqtisadi faydalılığının mahiyyətini aydınlaşdıran nəzəriyyələrin ("mütləq üstünlük", "müqayisəli üstünlük", "beynəlxalq dəyər", "xərclərin əvəz edilməsi" və.s) obyektiv qiymətləndirilməməsi də bu cür əlaqələrin formalaşmasına təsir göstərən ən mühüm amillərdən biri olmuşdur.

Müasir elmi texniki tərəqqi şəratində çağdaş milli iqtisadi sistemin səmərəli yöndə inkişafının təmin edilməsində xarici iqtisadi əlaqələr həlledici əhəmiyyətə malikdir. Deməli, respublikanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi və beynəlxalq əmək bölgüsünün dərinləşdirilməsi obyektiv zərurətdir. Bu isə respublikanın beynəlxalq əmək bölgüsünə hərtərəfli cəlb edilməsi probleminə prinsip etibarilə yeni baxış tərzini, beynəlxalq əmək bölgüsünün faydalılığını əsaslandıran və xarici iqtisadi əlaqələr statistikasının nəzəri və metodoloji əsasını təşkil edən iqtisadi nəzəriyyələrin araşdırmasını tələb edir.

Təsərrüfat həyatında xarici iqtisadi əlaqələri aydınlaşdıran ardıcıl iqtisadi nəzəriyyələrin işlənməsinə cəhd qədim dövrlərdən olmuşdur.

Bu nəzəriyyələrin araşdırdığı əsas məsələlər (beynəlxalq əmək bölgüsünün əsasları və prinsipləri, beynəlxalq ixtisaslaşmanın ən səmərəli və faydalı istiqamətləri, beynəlxalq mübadiləyə cəlb edilən milli yanaşmanın meyarlarının əsaslandırılması və.s.) indi respublikanın inkişafının indiki mərhələsində çox aktualdır.

Avropa ölkələrində bu cür nəzəriyyələrin ortaya çıxması feodal quruluşunun dağılması dövrünə təsadüf edir. Bu dövrdə yerli feodallara qarşı mərkəzləşdirilmiş dövlətin yaradılması metal pullann, qızıl və gümüşün toplanmasını tələb edirdi. Metal pullara, qızıl və gümüşə tələbat hakim iqtisadi təlimin merkantalizmin işlənib hazırlanmasının nəzəri istiqamətlərini müəyyən edirdi. Merkantalistlər sübut edirdilər ki, nağd qızıl ehtiyatının olması millətin çiçəklənməsinin əsasıdır. Onlar ixracatı stimullaşdırmaq və idxalı məhdudlaşdırmağı məqsədəuyğun hesab edirdilər. Birtərəfli qaydada idxalın məhdudlaşdırılması beynəlxalq ticarətin vəziyyətin xeyli mürəkkəbləşdirirdi.

Həmin dövrdə kapitalist istehsalının ziddiyyətli inkişafı, beynəlxalq ticarətin miqyasının genişlənməsi, ingilis siyasi-iqtisad nəzəriyyəsi banilərinin A.Smit və D.Rikardonun işləyib hazırladığı "sərbəst ticarət" nəzəriyyəsinin meydana çıxmasına zəmin yaratdı. (Sümer, Kutluk Kağan 2013. s.15)

A.Smit millət və xalqların sərvətinin əsasını əmək bölgüsü təşkil edir ideyasını saslandırırdı. Beynəlxalq əmək bölgüsündə fəal iştirak edən dövlət dahaçox gəlir əldə edir, A. Smit subut edirdi ki, mütləq üstünlüyə malik olan ölkə beynəlxalq əmək bölgüsünü həyata keçirir. Hər bir ölkə mütləq üstünlüyə malik olduğu məhsul istehsalı üzrə ixtisaslaşmalıdır. Həqiqətən də əgər xarici ticarət müxtəlif ölkələrdə istehsal xərclərinin nisbi səviyyəsindən asıh olan ixtisaslaşma prinsipinə əsaslanarsa onda bu cür mübadilə hər bir millətin sərvətinin artmasına kömək edir. (Sümer, Kutluk Kağan 2013, s.16)

Beynəlxalq əmək bolgüsü nəzəriyyəsinin sonrakı inkişafı D. Rikardonun adı ilə bağlıdır. O, dövlətlərarası əmək bölgüsünün səmərəliliyini '"müqayisəli üstünlük" prinsipi üzrə açıqlayırdı.

D.Rikardo özünün '"müqayisəli üstünlük" nəzəriyyəsini iki ölkə arasındakı ticarət mübadiləsi nümunəsi ilə açıqlayırdı. Beynəlxalq ixtisaslaşmanın meyardan ayıraraq, iki ölkə arasında mübadilənin hansı həddə mümkün və arzu olunduğunu göstərir. Hər bir ölkənin böyük üstünlüyə malik olduğu istehsal üzrə ixtisaslaşması daha faydalıdır. Belə ki, dövlətlərarası ticarətin vacib şərti kimi eyni bir əmtəənin ayrı-ayrı xərclərlə istehsalı çıxış edır. D.Rikardonun fikrincə

istənilən ölkənin başqa əmtəələrlə müqayisədə daha az əmək və kapital xərclərinə sahib olduğu əmtəə istehsalı üzrə ixtisaslaşması məqsədəuyğundur. (Sümer, Kutluk Kağan 2013, s.21)

D.Rikardo ona əsaslanırdı ki, tam sərbəst ticarət şəraitində müqayisəli xərclər prinsipi öz özünə fəaliyyət göstərir və nəticə etibarilə optimal ixtisaslaşmaya gətirib çıxarır. Belə ki, sərbəst ticarətdə ölkənin ixtisaslaşması əmək və kapital xərclərinin qənaəti meyarına uyğun baş verməlidir.

Müqayisəli üstünlük prinsipinə əsaslanan ixtisaslaşma beynəlxalq əmək və istehsal ehtiyatlarının daha səmərəli yerdəyişməsini təmin edir.

Müqayisəli üstünlük prinsipinə əsaslanaraq Con Styuart Mill beynəlxalq dəyər nəzəriyyəsini işləyib hazırladı. O mübadilənin hansı qiymətdə həyata keçirildiyini göstərdi. C.S.Milin fikrincə mübadilə dəyəri təklif və tələb qanununun elə bir səviyyəsinə görə müəyyən edilir ki, bu qiymətdə istənilən ölkənin ixracı onun idxalını ödəyir. Bu beynəlxalq dəyər nəzəriyyəsi bilavasitə milli iqtisadiyyatda fəaliyyət göstərən bazarın prinsiplərinə əsaslanır.

C.S.Mili qeyd edirdi ki, “xarici ticarətdən çox xeyir əldə edən ölkə əmtəələrinə xarici tələb daha yüksək olan ölkədir... onun əmtəələrinə xarici tələb, xarici əmtəələrə olan tələbdən nə qədər çox olarsa... mübadilə mühiti onun üçün bir o qədər faydalıdır, yəni müəyyən miqdar öz malları mübadiləsində çox xarici mallar əldə edir". (Dökmen, Gökhan 2015, s. 291-316)

Beynəlxalq dəyər nəzəriyyəsinə əsasən əmtəələrin mübadilə dəyəri onlara olan tələbin elastikliyinə əsasən təşəkkül tapır. O, müəyyən qiymət dairəsi müəyyənləşdirir ki, bu dairədən kənarda dövlətlərarası mübadilə özünün cəlbediciliyini itirir. Dövlətlərarası dəyər nəzəriyyəsinə görə dövlətlər arasındakı əmtəə mübadiləsini oplimallaşdıran qiymət mövcuddur.

Amerika iqtisadçısı Q.Haberler “müqayisəli üstünlük" nəzəriyyəsinə müəyyən yem şərtlər daxil edərək özünün “alternativ xərclər" nəzəriyyəsini yaratdı. O öz nəzəriyyəsini əsaslandırmaq üçün iki növ əmtəə istehsal edən iki ölkənin iqtisadi sistemini götürür. Yeni şərt kimi hər bir ölkəyə müəyyən istehsal imkanları verir. Hər bir ölkənin ən yaxşı texnologiyadan və bütün

ehtiyatlardan istifadə edərək bu iki əmtəələri hansı nisbətdə istehsal etdiyini göstərir. (Gottfried Haberler's 2011, s.-47.)

Beləliklə. Q.Haberler göstərir ki, beynəlxalq mübadilə hər bir ölkənin istehsal potensialından istifadə edilməsini optimallaşdırır. Başqa sözlə, beynəlxalq ticarətin ixtisaslaşması nəticəsində eyni istehsal ehtiyyatlaından istifadə edərək hər bir ölkə çox miqdarda əmtəə istehlak və istehsal etmək imkanına malik olur.

XX əsrin 30-cu illərində İsveç alimləri E.Hekşer və B.Ohlinin "İstehsal amillərinin yerdəyişməsi” nəzəriyyəsi ortaya çıxır.

Onu da qeyd edək ki, beynəlxalq əmək bölgüsünün klassik nəzəriyyələri hər hansı bir məhsul üzrə ölkənin malik olduğu müqayisəli üstünlüyün mənşəyini aydınlaşdırmır. Hekşer-Ohlinin “istehsal amillərinin yerdəyişməsi" nəzəriyyəsi göstərir ki, bu üstünlük istehsal amillərinin təmin olunması səviyyəsi ilə əlaqədardır. (The Heckscher-Ohlin (Factor Proportions) Model BIS Papers, No. 65, 2012, s. 51- 81)

Beynəlxalq ticarət və ayrı-ayrı ölkələrin ixtisaslaşmasına qeyri-klassik yanaşmanın mahiyyəti belədir: tarixi və coğrafi xarakterindən asıh olaraq maddi və əmək ehtiyatlarının ölkələr arasındakı bölgüsü qeyri-bərabərdir. Onların fikrincə bu da öz növbəsində milli müqayisəli üstünlükdən asılı olan əmtələrin qiymətlərinin nisbi fərqlərinə səbəb olur Buradan amillərin mütənasibliyi açıq iqtisadiyyatda hər bir ölkə nisbətən yaxşı təmin edildiyi amillərdən çox tələb edən əmtəə istehsalı üzrə ixtisarlaşmağa cəhd göstərir.

Hekşer-Ohlin qeyri-klassik nəzəriyyənin müddəalarının real beynəlxalq xarici iqtisadi inkişafa uyğun gəlməməsi artıq müharibədən sonrakı ilk illərdə tədqiqatçıların diqqətini cəlb etmişdir.

Bir çox tədqiqatçılar bu uyğunsuzluğu həll etməyə cəhd göstərirdilər. Onlar qeyri - klassik nəzəriyyənin əsas müddəalarını saxlamaq şərti ilə ayrı–ayrı ünsürlərinə " düzəlişlər ” etmək yolunu seçdilər. Düzəlişlərdə əsas diqqət amillərin sayının artırılmasına ilk öncə "texnologiya” yaxud "ixtisaslı işçi qüvvəsi" kimi əlavə amillərin cəlb edilməsinə yönəldilmişdir.

Amerika tədqiqatçısı İ.Kravis qiymətlə yanaşı ayrı-ayrı ölkələrdə istehsal olunan əmtəələrin yüksək keyfiyyəti ilə bağlı yaranan üstünlüyündə az əhəmiyyət daşımadığı fikrini irəli sürürdü. O qabaqcıl istehsal biliklərinin (təcrübələrin) müəyyən gecikmələrlə yayıldığını sübut etməyə çalışırdı. Daha yüksək texnoloji səviyəyə malik olan ölkənin müəyyən müddətdən sonra rəqabət üstünlüyü əldə etməsini əsaslandırırdı.

İxtisaslı əməyin istehsalın müstəqil amili kimi daxil edilməsinin zəruriliyini amerikalı alim: D.Kisinq tərəfindən əsaslandırıldı O, hazır məmulat (məhsul) qruplarının beynəlxalq ticarətinin xarakter və istiqamətinin ixtisaslı və qeyri-ixtisaslı əməyin nisbi artıqlığının müəyyən etdiyini sübut edirdi.

Kisinqin tədqiqatlarında ABŞ-da idxal olunan əmtəələrin səviyyəsi itə müqayisədə ixrac olunan əmtəələrin “ixtisaslaşmayla yüklənmə” ("təchiz edilmə") səviyyəsini yüksək olduğunu əsaslandırılırdı.

Ayrı-ayrı ölkələrdə də aparılan tədqiqatın nəticələn idxal yönümlü sahələrlə müqayisədə ixrac yönümlü sahələrdə “ixtisaslaşmayla yüklənmə” səviyyəsi yüksək olduğunu göstərdi.

Deməli istehsal amillərinə ardıcıl olaraq əlavələr etməklə (məsələn, “sahibkarlıq qabiliyyəti”, “istehsal texnologiyası” və.s.) xarici ticarətin inkişaf meylini aydınlaşdırmaq olar.

Hekşer Ohlin modelinin inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə çoxsaylı cəhdlər olmuşdur. Bu modelin tərəfdarları olan iqtisadçılar onun əsas prinsiplərini saxlamaqla, modelin dinamikliyi məqsədilə ona bir sıra əlavə amillər «tələbin quruluşunun dəyişilməsi (C.Conson), texniki tərəqqinin təsiri altında istehsal quruluşunun dəyişməsi (C.Hiks, Q.Qruber və. s) amillərdən birinin hərəkəti (E.Madella) daxil edirdilər.

Elmi-texniki tərəqqinin beynəlxalq ticarətin inkişafına təsiri miqyasının genişlənməsi, bu amilin də nəzərə alınmasım tələb edirdi.

Beynəlxalq ticarətin ən geniş yayılmış modellərindən biri də texnoloji fərqdir. Bu modelin əsas müddəaları amerika iqtisadçısı M.Poznerin işlərində əsaslandırılmışdır.

Son dövrlərdə beynəlxalq ticarətin problemlərini araşdıran nəzəriyyələrdə firma, müəssisə, mikroiqtisadiyyat səviyyəsində təhlilin zəruriliyi daha güclü nəzərə çarpır. Yəni təhlilin obyekti ayrı-ayrı ölkələr deyil, beynəlxalq firmalardır.

Bu cür yanaşma Amerika tədqiqatçıları S.Fobok və G.Simmondsın işlərində öz əksini tapmışdır. Onlar ölkələrarası əmtəə və xidmətlərlə ticarətdə qərar qəbul edən ölkə deyil vahid kommersiya müəssisəsi olduğunu əsaslandırırdılar. (S.Fobock ve G.Simmonds 2015: s.48.)

Tədqiqatçılar təhlilin obyekti kimi firma və beynəlxalq kampaniyanı ayıraraq hansı hallarda firmanın xarici bazara çıxmasını və onu müvəffəqiyyətlə zəbt etməsi məsələlərini araşdırmağa cəhd göstərirlər. İlk dəfə bu məsələni əsaslandırmağa amerika alimi S.Linder cəhd etmiş və firmanın yaratdığı mürəkkəb texnoloji əmtəələr artıq mövcud tələbin reaksiyası, yəni daxili tələbin bütövlükdə tələbat olduğu nəticəsinə gəlmişdir. Yalnız istehsalın sonrakı genişlənməsindən, daxili bazarın doldurulmasından sonra firma xarici bazarı zəbt edir. (Linde, S.B. 2011: s.125)

Firma xarici bazara çıxmasını milli istehlakçılar üçün hazırladığı əmtəələr əsasında həyata keçirir. Lakin. S.Linderin nəzəriyyəsinin sonrakı inkişalı amerika alimləri C.Kindelberqer, R.Vernon və L.Uelsanın adı ilə bağlı olan “məhsulun yaşama (həyat) dövrü" nəzəriyyəsinin ortaya çıxması ilə nəticələnmişdir. (Linder’s Trade Thesis. 2013: s. 262–268.)

Amerika alimlərinin adı ilə bağlı olan bu nəzəriyyə 60-cı illərin reallığını, yəni Amerika bazarı üçün istehsal edilən və ABŞ-da istehlak edilən əmtəələrin digər inkişaf etmiş ölkələrə tədricən genişləndiyini əks etdirirdi. Alimlər bu nəzəriyyədən istifadə ediblər.

Bu nəzəriyyədən istifadə edərək ABŞ-ın daxili bazarında istehsal edilən əmtəələrin digər ölkələrə ixracın mərhələlərini izah edirdilər. Boyük qrup əmtəələrin xarici ticarətinin inkişaf qanunauyğunluqları bu nəzəriyyənin vasitəsilə izah edilirdi.

Firmanın xarici ticarət fəaliyyəti nəzəriyyəsini qeyri-klassik nəzəriyyənin ünsürləri ilə birləşdirməyə cəhd edərək amerika iqtisadçısı M.Porter aşağıdakı

suala cavab vermək istəyirdi: Niyə konkret ölkənin firması ayrı-ayrı sahələrdə rəqabət üstünlüyü əldə edir?

80-cı illərin axırlarında alim dünya ticarətinin 1\2 hissəsini təşkil edən on iri sənaye ölkəsində tədqiqat apardı. Tədqiqatın nəticələri beynəlxalq bazarda ölkənin rəqabət qabiliyyətinin bir-biri ilə qarşılıqlı əlaqədə olan dörd başlıca parametrlərdən asılı olduğunu göstərən “millətin beynəlxalq rəqabət qabiliyyətliliyi” nəzəriyyəsini işləyib hazırlamağa imkan verdi.

M.Porterin fikrincə xarici ticarətin müasir inkişafını müəyyən edən dörd başlıca parametr vardır. Bunlar aşağıdakılardır: amillərin şəraiti; tələbin şəraiti; xidmət edən sahələrin yaxınlığı; firmanın strategiyası və rəqabət. (Porter, M, A 2015, s. 185)

Daxili bazarda rəqabətin olması mütləqdir. M.Porter dövlət tərəfindən müdafiə olunaraq istehsalın bir ölkədaxili firmada cəmləşdirilməsinin potensial səmərəliliyim qəti rədd edir. Belə dövlət firmalarının bir çoxu az səmərəliliyi, təbii ehtiyatlardan qeyri-səmərəli istifadəsi və zəif əmək məhsuldarlığı ilə seçilir.

Daxili bazarda rəqabət firmaları xarici bazara çıxmağa həvəsləndirilir, xarici bazar axtarıb tapmağa sövq edir. Bundan başqa daxili bazarda rəqabət qabiliyyətli əmtəələrin çox olduğu şəraitdə xarici satış bazarnun fəal surətdə axtarmaq məsələsi həll edilir. Deməli, M.Porter nəzəriyyəsinin milli əmtəələrin rəqabət qabiliyyətliliyini yüksəltmək baxımından mühim əhəmiyyəti vardır.

İkitərəfli ticarətin müəyyənləşdirilməsi üçün nəzəriyyələrin faktorlarına aşağıdakılar aiddir:

1. İqtisadiyyatın həcmi. Eyni səviyyədə olan ölkələrin bir-biri ilə ticarət etmək ehtimalı daha çoxdur.
2. Coğrafi yaxınlıq, bir-birinə yaxın olan ölkələr arasındaki nəqliyyat xərclərinin aşağı olmağı, bənzər gömrük şərtləri və ola bilən tanışlıqlar yaxın münasibət qurmağa imkan yaradır.
3. İstehlakçı seçimlərində oxşarlıqlar.

4. Paylaşılan tarix, məsələn, müstəmləkə əlaqələri, Böyük Britaniya və Birləşmiş Millətlər Təşkilatı arasında döyüş sonrası ticarət kimi məsələləri izah edir.

5. Dilin bənzərliyi - Bu ticarətin bağlarını gücləndirir. Ünsiyyət qurmaq daha asan olduğu üçün və mədəni amilləri bölüşdürmək olur.

6. Oxşar vaxt zonaları. Bu, elbətdəki, işlərin paralel aparılmasına imkan yaradır.

Yüksək səviyyədə təhsil və texnologiya alan bir ölkə, yüksək texnologiyalı, yüksək dəyərli əlavə mal və xidmətlər istehsal edəcək və beləliklə, adambaşına oxşar ÜDM-i olan bir ölkə ilə ticarət etmək mümkündür. Misal üçün, Afrikada inkişaf edən iqtisadiyyata maliyyə xidmətlərini və yüksək texnologiyalı İT satışı satmaq çətindir.

Beləliklə araşdırdığımız beynəlxalq əmək bölgüsü nəzəriyyələrini ümumiləşdirərək onları iki qrupa ayırmaq olar:

1) “müqayisəli xərclər” nəzəriyyəsi - "Rikardo-Horrens-Mill”;

2) “istehsal amillərindən hər hansı birinin artıqlığı” nəzəriyyəsi “Hekşer-Ohlin-Samuelson”.

Müasir dövrdə hər bir ölkənin və təsərrüfat subyektinin beynəlxalq ixtisaslaşmada və beynəlxalq ticarətdə malik olduğu üstünlüyün səbəbini aydınlaşdırmaq üçün beynəlxalq əmək bölgüsünün bütün nəzəriyyələrindən kompleks istifadə etmək zəruridir.

Birinci qrup nəzəriyyələrə görə ölkələr arasındakı əmək məhsuldarlığının mövcud nisbi fərqləri xarici ticarət mübadiləsinin əsasını təşkil edir.

İkinci qrup nəzəriyyələrə görə isə ticarətin və ölkənin ixtisaslaşmasının əsas səbəbi istehsal şəraitindəki, yəni ölkənin istehsal amilləri ilə təmin olunmasındakı fərqlərdir. Nisbətən əməklə zəngin olan ölkə (kapitalla müqayisədə) daha çox əmək tutumlu, əksinə nisbətən artıq kapitala malik olan ölkə isə kapital tutumlu əmtəələr ixracında ixtisaslaşmağa başlayacaqdır. Deməli, beynəlxalq əmək bölgüsü, məsələlərinin araşdıran 1-ci qrup nəzəriyyəçilər əsas diqqəti beynəlxalq

ixtisaslaşma nəticəsində əmək xərclərinin qənaət edilməsinə, 2-ci qrup nəzəriyyəçilər isə hər bir ölkədə mövcud olan istehsal amillərinin səmərəli istifadəsinə yönəldir .

Birinci qrup nəzəriyyələrdən istifadə edərək hər bir ölkənin təbii iqlim və maddi ehtiyatlarla təmin olunma səviyyəsinin müxtəlifliyi əsasında yaranan beynəlxalq ixtisaslaşmanı, ikinci qrup nəzəriyyələrdən istifadə edərək isə istehsal amillərinin səmərəli kombinasiyası əsasında yaranan ixtisaslaşmanı izah etmək olar.

Beləliklə, beynəlxalq əmək bölgüsünün yaranması şərtlərini və səbəblərini aydınlaşdırsın nəzəriyyələrin müddəaları aşağıdakı faktın həqiqiliyini sübut edir: beynəlxalq miqyasda ixtisaslaşma bütün iştirakçı ölkələr üçün faydalıdır. Beynəlxalq ticarətin sərbəstliyi şəraitində hər bir ölkə istehsalı daha səmərəli və digər əmtəələrə mübadilə etmək daha əlverişli olan əmtəələr istehsalı üzrə ixtisaslaşmağa cəhd edir. Beynəlxalq ixtisaslaşma hər bir ölkəyə öz ehtiyyatlarını daha səmərəli üsulla istehsal edə biləcəyi əmtəələr üzərində cəmləşdirməyə, xarici ölkələrlə ticarət vasitəsi ilə başqa məhsulları əldə etməyə imkan verir.

Beynəlxalq əmək bölgüsü nəzəriyyələrim öyrənilməsi hesabına əldə olunmuş mühüm nəzəri və metodoloji nəticələr Azərbaycan Respublikasının milli statistika xidmətinin tərkib hissələrindən olan İtaliya Respublikası ilə xarici iqtisadi əlaqələr statistikasının beynəlxalq qaydalara uyğun səmərəli sisteminin formalaşdırılmasında əsas kimi çıxış edir.

## 1.2. İqtisadi inteqrasiya şəraitində xarici iqtisadi əlaqələrin müasir vəziyyətinin inkişafına təsir edən amillər

AR-nın dünya təsərüfatına inteqrasiya etmə səviyyəsi artdıqca xarici iqtisadi fəaliyyət iqtisadi həyatın vacib amili kimi özünü göstərir. Bu xarici bazarın sərbəst şəkildə öyrənilməsinə və fəaliyyət göstərməsində beynəlxalq iqtisadiyyatının qanunlarına əməl edən prinsipcə yeni sahibkarlıq sektoru yaranmasına təkan verir. Əvvəllər iqtisadi münasibətlər sahəsində ixtisaslaşmış xarici ticarət təşkilatları maraqlanırlarsa, indi bir çox istehsal və ticarət strukturları bu cür fəaliyyətlə

maraqlanır. Xarici iqtisadi fəaliyyət dedikdə əmtəələrin istehsal edilməsi və xidmətlərin təqdim edilməsi sektorunda dünya təsərrüfatının subyektləri arasında qarşılıqlı əlaqələrin formaları və üsulları nəzərdə tutulur.

Xarici iqtisadi əlaqələrin tərəqqisini həvəsləndirən mühüm səbəblərə aiddir:

- ayrı-ayrı dövlətlərin iqtisadi tərəqqisinin qeyri-bərabərliyi,
- insan, məhsul və maliyyə vəsaitlərindəki fərqlər,
- elmi-texniki tərəqqinin ayrı-ayrı səviyyələri,
- dövlətlər arasında siyasi qarşılıqlı əlaqələrin xarakteri,
- coğrafi durumun əlamətləri, təbii və iqlim şəraiti və s.

D.Rikardonun Nisbi üstünlüklər nəzəriyyəsinə əsasən, dövlətlər müqayisəli şəkildə üstün olduqları sahələrdə tərəqqi etməli və qarşılıqlı azad ticarətə əsaslanaraq iqtisadiyyatlarını yaratmalıdır. Dövlətlər dəqiq sahələr üzrə ixtisaslaşacağından qarşılıqlı ticarətin və xarici iqtisadi münasibətlərin yaradılması milli iqtisadiyyatın tərəqqisi üçün əsas prinsipə çevriləcəkdir. (Menkyu Q. 2014, s.50-53).

Qeyd edildiyi kimi xarici iqtisadi əlaqələrin 3 mühüm tərkib hissəsinə xarici ticarət əlaqələri, xarici turizm əlaqələri və xarici investisiya əlaqələri aiddir. Hal-hazırda milli iqtisadiyyatlar qarşısında xarici iqtisadi əlaqələri qurarkən səmərəliliyi maksimallaşdırmaq üçün dayanıqlı iqtisadi inkişafın prinsiplərinə əməl edilməsi məsələsi durur. Bu baxımdan, xarici iqtisadi əlaqələr qurularkən 1992-ci ildə Rio-de-Janeyro şəhərində qəbul edilmiş dayanıqlı iqtisadi inkişafla bağlı deklarasiyanın prinsiplərini xarici iqtisadi əlaqələrin qurulması ilə aşağıdakı kimi uzlaşdırmaq mümkündür. (The Rio Declaration on Environment and Development. http://www.unesco.org/education/pdf/RIO_E.PDF)

İdarəetmənin yaxşı təşkil edilməsi prinsipi. Bu prinsip müvafiq qanunvericilik sisteminin yaradılması, ona effektiv olaraq icra və nəzarət sisteminin tətbiq edilməsi, idarəetmənin elektronlaşdırılması, dövlətlərin müvafiq beynəlxalq və regional təşkilatlarda təmsili kimi məsələləri ifadə edir. Xarici iqtisadi münasibətlərin yaradılmasında idarəetmə sistemi yaxşı təşkil edildikdə, əsas hədəf və məqsədlərə nail olunduqda milli iqtisadiyyat intensiv inkişaf tempi əldə etmiş

olur.

Beynəlxalq uzlaşma prinsipi. Bu prinsip xarici iqtisadi münasibətlər qurularkən uyğun beynəlxalq, regional təşkilatlar tərəfindən qəbul edilmiş ortaq qaydalara müvafiq olaraq hərəkət etməyi və ölkələrin atacaqları addımları uzlaşdırmalı olmasını ifadə edir.

Səmərəlilik prinsipi. Dayanıqlı iqtisadi inkişafın mühüm prinsiplərindən biri resursların səmərəli istifadə edilməsi prinsipidir. Xarici iqtisadi münasibətlər qurularkən xarici aləmlə bağlı məsələlərin nəzərə alınması, milli iqtisadiyyatların inkişafının təmin olunması nəzərə alınmaqla azad ticarətin tətbiqi və bununla əlaqədar standartların qəbul olunması səmərəlilik prinsipinin xarici iqtisadi münasibətlərin yaradılmasında tətbiqini ifadə edir.

Bərabərlik prinsipi. Bu prinsip xarici iqtisadi əlaqələrə tətbiq edilərkən ticarət və investisiya əlaqələri qurularkən gəlirlərin ölkələr arasında ədalətli bölüşdürülməsini ifadə edir. Azad ticarət yanaşması nəticəsində İEÖ-in İEOÖ-ə nisbətdə üstünlüklərə səbəb olması və bərabərliyin pozulmasının bu prinsiplə əngəllənməsinə çalışılır. Bu nöqteyi-nəzərdən, dayanıqlı iqtisadi tərəqqinin və xarici iqtisadi münasibətlərin yaradılması zamanı milli iqtisadiyyatların inkişafını təmin etmək üçün ədalətli ticarət, İEOÖ-in mənafeyinə uyğun investisiya mühitinin ərsəyə gəlməsi kimi bərabərlik prinsipinə müvafiq siyasətlər tətbiq

Qoruma və əvvəlcədən tədbir görülməsi prinsipi. Bu prinsip özündə yarana biləcək sosial-iqtisadi və ekoloji problemlərdən müdafiəsini və baş verməsi ehtimalı olan bu kimi hallara qarşı əvvəlcədən tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Misal üçün, xarici iqtisadi münasibətlər qurularkən təhlükəli maddələrin daşınmasına qarşı əvvəlcədən tədbirlərin həyata keçirilməsini, turizm yollarının təhlükəsizliyinin təmin olunmasını, əlverişli investisiya mühitinin yaradılmasını bu kimi qabaqlayıcı tədbirlərə nümunə olaraq göstərmək olar.

Ekosistemin vahidliyi prinsipi. Bu prinsip dövlətlərarası iqtisadi münasibətlər qurularkən qəbul edilmiş ekoloji normalara əməl edilməsini özündə əks etdirir. Ekosistem ümumdünya xarakterli olduğu üçün ölkələrin milli iqtisadiyyatlarını dayanıqlı iqtisadi tərəqqi prinsiplərinə görə qurması kifayət deyildir. Bunun

effektiv olması üçün atılan addımlar ümumdünya səviyyəli olmalı və ümumi xarakter daşımalıdır. Əks halda qonşu ölkələrdə nəzərəçarpan ekoloji və sosial-iqtisadi gərginliklər də sonda öz iqtisadiyyatlarını dayanıqlı formada qurmaqla kifayətlənməyə çalışan dövlətlərə təsir edəcəkdir.

Sosial məsuliyyətlilik prinsipi. Bu prinsip tətbiq olunan dayanıqlı inkişaf normalarının tətbiqində vətəndaşların könüllü olaraq iştirakı və cəmiyyət qarşısında sosial, iqtisadi və ekoloji məsuliyyət daşıması ilə səciyyələnir. Beynəlxalq iqtisadi münasibətlər yaradırkən aparılan ticarət və investisiya əməliyyatları, o cümlədən turizm fəaliyyətinin nəticələrinin ekoloji problemlərə yol olmaması üçün ölkələr qədər vətəndaşlar da sosial məsuliyyət daşıyırlar. Bu kimi məsuliyyətlərə xarici aləmin müdafiəsində kollektiv yanaşmanın tətbiqi, zərərli məhsulların özəl sahibkarlıq tərəfindən daşınması zamanı normalara ciddi şəkildə riayət olunması, turistlərin ətraf mühitin çirklənməməsi və balansının qorunmasında diqqətli olması kimi məsələləri vurğulamaq olar.

İqtisadi fəaliyyətin prinsiplərini kompleks, xüsusi və ölkədaxili prinsiplərə ayırmaq olar. Bu fəaliyyətin kompleks prinsipləri dövlətlərarası işgüzar prosedurların bütün nümayəndələrinin əməl etdiyi qəbul olunmuş qaydalardır. Bu prinsiplər bir-birindən fərqlənə bilər ancaq onlar 3 vacib prinsipə - elmilik, sistemlilik və qarşılıqlı əhəmiyyətə əsaslanır.

İqtisadi fəaliyyətin elmilik prinsipi o mənanı verir ki, bu fəaliyyətin tərəqqisi obyektiv iqtisadi qayda-qanunlara müvafiq şəkildə həyata keçirilir. İqtisadi fəaliyyətini sistemliliyi onun müxtəlif tərkib amilləri arasında ciddi əlaqələrin olmasını nəzərdə tutur.

Dövlətlərarası əməliyyatda olan hər bir tərəf müqabil öz mənfəətini qazanır. Bu fəaliyyətin idarə olunmasının qeyd olunan ümumi prinsiplərindən əlavə əməl etməsi vacib olan çoxlu spesifik prinsiplər də mövcuddur. Xarici iqtisadi fəaliyyətin xüsusi prinsipləri buna uyğun dövlətlərarası aktlarda təsbit olunmuşdur və bu aktları imzalayan bütün ölkələrin onları icra etməsi məcburidir. Dövlətlərarası iqtisadi əlaqələrin təşkil edilməsi prinsiplərinin tam siyahısı BMT-nin Baş Assambleyasının IV xüsusi sessiyasında qəbul olunmuş “dövlətlərin

münasibətlərinin və iqtisadi hüquqlarının xartiyasında" göstərilmişdir. Bu sənəd daxilində aşağıdakı prinsiplər vardır:

- suverenlik,
- ölkənin ərazi tamlığı və siyasi müstəqilliyi,
- bütün ölkələrin suveren bərabərliyi,
- daxili işlərə müdaxilə etməmək,
- qarşılıqlı və ədalətli xeyir,
- firavan yaşama,
- xalqların eyni hüquqlu olması və öz müqəddaratını təyin etmək,
- mübahisələrin sülh yolu ilə həll edilməsi,
- dövlətlərarası öhdəliklərə vicdanla əməl etmək,
- əsas azadlıqlara və insan hüquqlarına hörmətlə yanaşmaq ,
- dövlətlərarası sosial ədalətliliyə yardım etmək,
- tərəqqi məqsədləri üçün dövlətlərarası əməkdaşlıq və s.

Xüsusi prinsiplərin əksəriyyəti sahəvi səviyyədə fəaliyyət göstərir. Ölkə üçün Ağ kitabda qeyd edilən "Avropa İttifaqında xarici iqtisadi fəaliyyətin prinsipləri" xüsusi maraq yaradır. Bu sənəd daxilində aşağıdakı prinsiplər vardır:

- milli sərhəddi keçən məhsulların sənədlərinin tərtib edilməsi və nəzarət təşkil edilməsi,
- əmək fəaliyyəti üçün şəxslərin müstəqil şəkildə hərəkəti yaxud hər hansı bir ölkədə ömürlük yaşamaq,
- texniki normaların vahid hala salınması,
- istehlak bazarının açıqlığı,
- maliyyə xidmətlərinin liberallaşdırılması,
- nəqliyyat xidmətlərinin liberallaşdırılması,
- intelektual və sənaye mülkiyyəti hüququ barəsində qanunvericilik üzrə sənaye əməkdaşlığı üçün səmərəli şəraitin yaradılması,
- fiskal əngəllərin yox edilməsi.

Dövlətin və xarici təsərrüfat subyektləri xarici iqtisadi fəaliyyət göstərərkən xalqın suverenliyi, bərabərhüquqluluğu, xarici iqtisadi fəaliyyət subyektlərinin

maraqlarının müdafiəsi, xarici iqtisadi sahibkarlığın müstəqilliyi, mübadilə bərabərtliyi, malların idxal və ixracında dempinqin yolverilməzliyi kimi baza prinsiplərə riayət etməlidir. Xarici iqtisadi fəaliyyətin mühüm subyektləri aşağıdakılardır:

- dövlət,
- ayrı-ayrı səviyyəli dövlətlərarası təşkilatlar və iqtisadi quramlar və maliyyə mərkəzləri,
- ayrı-ayrı səviyyəli milli müəssisələr,
- transmilli kompaniyalar və banklar,
- fiziki şəxslər.

Xarici iqtisadi münasibətlər və milli iqtisadiyyat arasında ciddi əlaqələr olsa da iqtisadiyyatda xarici əlaqələrin güclənməsi və genişlənməsi qloballaşma, ayrı-ayrılıqda dövlətlərin iqtisadiyyatın möhkəmlənib inkişaf etməsi isə milli iqtisadiyyatların inkişaf prosesi olduğundan arada ziddiyyət yaranır. Belə olduğu halda xarici iqtisadi münasibətlər effektiv təşkil olunacağı halda milli iqtisadi inkişafın təminatçısı rolunda özünü göstərə bilər. Ölkələrin xarici iqtisadi siyasət konsepsiyaları onların beynəlxalq arenada imiclərinin təşəkkül etməsi, balanslı iqtisadi siyasətin yürüdülməsi, dünya bazarında fəallığın artması və dünya ölkələrində rəqabət qabiliyyətliliyin gücləndirilməsi ilə birbaşa əlaqədardır.

Xarici iqtisadi münasibətlər yaradılan zaman ilk öncə diqqət edilməli olan məsələlərdən biri də milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması məsələsidir. Bu nöqteyi-nəzərdən, iki fərqli formada yanaşma ortaya qoyula bilər. İlk yanaşmada xarici iqtisadi münasibətlərin yaradılması ölkələrin uyğun və səmərəli şərtlərdə vacib olan məhsulları xaricdən təmin etməsinə imkan yaratdığı üçün təhlükəsizliyi təmin edən faktor kimi özünü göstərir. Burada diqqət edilməli olan məqam kimi dövlətin strateji sahələrdə, mühüm qida ehtiyatlarının təminində, iqtisadiyyatın dayaq strukturunu təşkil edən sektorlarda xaricdən asılılıq payının azaldılmasını xüsusi qeyd etmək lazımdır. Əks halda dayanıqlı iqtisadi inkişaf və milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması prinsipləri icra edilməmiş olacaqdır.

Xarici iqtisadi münasibətlərin yaradılmasında milli iqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar ikinci yanaşma isə xarici iqtisadi münasibətlərin yaradılması, beynəlxalq zəmində ticarət, valyuta, turizm və investisiya əlaqələrinin tətbiqi zamanı dövlətlərin maraqlarının ədalətli və bərabər şəkildə təmin edilməsi ilə bağlıdır. Əks halda asılı hala düşə biləcək dövlətlər müstəqil xarici iqtisadi siyasət həyata keçirəcəklər. Misal üçün, SSRİ hakimiyyəti illərində Azərbaycan SSR ittifaqdankənar xarici ölkələrlə birbaşa ticarət münasibətləri yarada bilmirdi. Bu nöqteyi-nəzərdən, müstəqillik qazandıqdan sonra milli iqtisadiyyatın təkmilləşdirilməsi üçün yeni imkanlar qazanmış oldu.

Xarici ticarət münasibətlərinin yaradılması milli iqtisadiyyatın inkişafının təmin olunması üçün başlıca şərtlər arasındadır. Dövlətlər iqtisadi inkişaflarını təmin etmək üçün məhsullarını ixrac edərək əlavə vəsaitlər alırlar, dövlətə aid özəl sektor məhsullarını ixrac etdikdə qazanmış olduğu mənfəətlərdən vergi ödəyərək büdcənin yaranmasında iştirak edir. Məlumdur ki, ixrac potensialının artırılması dövlət və özəl sektor nöqteyi-nəzərindən yanaşıldıqda dövlətə fayda verir. Cəmiyyət daxilindəki fərdlər də ümumi rifahın artmasından fayda qazanmış olurlar. Ticarət əməliyyatlarının idxal cəhətdən artırılması isə daxili sektorda istehsalı baha başa gələn, səmərəli olmayan məhsulları daha müvafiq və sərfəli qiymətlərdən idxal etməklə milli iqtisadiyyatın resurslarını səmərəli paylaşdırmaq cəhətdən faydalıdır. Bu nöqteyi-nəzərdən, dövlətlər strateji olmayan və iqtisadi təhlükəsizliyini təhdid etməyən sahələrdə səmərəli idxalı qəbuledilən sayırlar. İqtisadi təhlükəsizlik və strateji əhəmiyyəti yüksək olan sahələrdə dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün idxal məhdud nisbətdə və yaxud ümumiyyətlə qəbul olunmayan sayılır. İdxal-ixrac əməliyyatları tədiyyə balansını formalaşdıran mühüm amil olduğu üçün xarici ticarət əlaqələrinin yaradılması ölkənin valyuta siyasətinin formalaşmasına təsir edən əsas faktorlardan birinə çevrilir.

Ölkələr valyuta siyasətlərini xarici valyutaların ölkəyə daxil olunması istiqamətində qururlarsa, tədiyyə balansının müsbət saldoya sahib olmasına, ixracın idxalı üstələməsinə çalışırlar. Bu zaman, ölkəyə əlavə xarici valyuta daxil

olacağı üçün milli valyutanın dayanıqlılığını təmin etmək mümkün olur. İxracın idxalı üstələməsi nəticəsində ölkəyə əlavə xarici valyutanın daxil olması milli valyutanı gücləndirdiyi üçün, milli valyutanın bahalaşmaması siyasətini həyata keçirən dövlətlər idxalın hər hansı səviyyədə ixracı üstələməsinə və mənfi saldonun yaranmasına göz yumurlar. Xarici ticarət əlaqələri və valyuta siyasəti arasında müvafiq balansın təmin olunmasının milli iqtisadi inkişafda xüsusi rolu vardır. (Hacıyev F.Ş., Şamaxı: Azərbaycan, 2017, № s.37-50)

### 1.3. Ölkələr arasında iqtisadi əlaqələrin inkişafında müasir informasiya texnologiyalarının rolunun artırılması məsələləri

İnformasiya cəmiyyətinin bilik cəmiyyətinə keçid mərhələsidir. Buna görə bilik gələcək cəmiyyətin əsas xüsusiyyətlərindən birinə çevriləcək, informasiya və kommunikasiya texnologiyaları prioritet deyil, bir vasitə kimi çıxış edir.

